# Azərbaycanın lider mövqeyi və Münxenin yeni reallıqları




***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 13-dən 15-dək Almaniyada keçirilən Münxen Təhlükəsizlik Konfransında səsləndirdiyi bəyanatlarda, verdiyi mesajlarda regional məsələlərə xüsusi diqqət yetirdi. Prezident konfransda Azərbaycanın Ermənistanla münasibətlərindən savayı, ümumilikdə Cənubi Qafqaz, Mərkəzi Asiya kimi geniş bir bölgəni əhatə edən məsələlərə toxundu. Adətən belə platformalarda, tədbirlərdə iştirak edən ölkə başçıları, hökumət rəhbərləri daha çox öz ölkələri ilə bağlı məsələləri qabardır, daxili problemlərinə yer ayırırlar. Azərbaycan Prezidenti isə Münxendə regionun rifahı, onun çiçəklənməsini qabardan lider kimi yadda qaldı, müzakirələrdə əsas diqqəti region ölkələri üzərində qurdu.***

Ölkə Prezidentinin səsləndirdiyi hər cümlədə region ölkələrinin rifahı, onların inkişafı yolları qabardıldı. Məsələn, bəyan edildi ki, Azərbaycan fiziki infrastruktura, o cümlədən dəniz limanları, dəmir yolları, magistral və hava yolları ilə yüklərin daşınmasına böyük sərmayələr yatırıb. Bütün bunları reallaşdırarkən isə region dövlətlərinin maraqları nəzərə alınıb. ”Birmənalı olaraq, regional daşımalar qovşağına çevrilmək üçün sizin qonşularınızla yaxşı münasibətləriniz olmalıdır və Azərbaycanda həm Qərb, həm də Şərq istiqamətlərində belədir”, - dövlət başçısı vurğulayıb.

Prezident bəyan edib ki, Avropa ilə Asiya arasında yerləşən Azərbaycanın coğrafi mövqeyi üstünlükdür, lakin fiziki infrastruktursuz onun mənası çox deyil. Ötən il Azərbaycan vasitəsilə daşınan yüklərin 100 mindən artıq nəqliyyat vahidi üzrə rekord göstərici əldə edib. Bir neçə ildən sonra həmin göstərici 200 min və hətta 300 min nəqliyyat vahidinə çatacaq. Hədəf 500 min nəqliyyat vahididir.

Azərbaycan lideri bəyan edib ki, hazırda Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi üzərində Mərkəzi Asiyadakı tərəfdaşlarla sıx işlər gedir:

”O, bu il hazır olmalıdır və Ermənistanla sülh qurulduqdan sonra yeni imkanlar əldə olunub. Azərbaycandan Ermənistana və oradan Avropa istiqamətində gedən dəhlizin yük həcmi baxımından böyük potensialı var. Azərbaycan hazırda öz ərazisində dəmir yolunun çəkilməsinə sərmayə yatırır. Azərbaycan ərazisində - ölkəmizin əsas hissəsi və eksklav Naxçıvanda çəkiləcək və bərpa olunacaq dəmir yolunun tam uzunluğu 600 kilometrdir. Ermənistanda həmin yolun uzunluğu 40 kilometrdən bir az çoxdur”.

***Prezident vurğulayıb ki, çəkilən kimi biz Azərbaycan vasitəsilə Orta Dəhlizin iki hissəsinə malik olacağıq. Bu, Qərb ilə Şərq üçün faydalı olacaq və təbii ki, Cənubi Qafqazda yerləşən ölkələrə də fayda verəcək. Panel müzakirədə çıxış edən Prezident hər bir qonşu dövləti adbaad qeyd etdi, onlarla bağlı məsələni qabartdı. Prezident vurğulayıb ki, region ölkələri haqqında danışanda Xəzər dənizinin o tayında Mərkəzi Asiyadakı qonşularımızı da unutmamalıyıq:***

”Çünki onlar olmadan Çindən Avropaya heç bir yük daşımaq mümkün olmayacaq. Beləliklə, Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Avropa - coğrafiya budur və Azərbaycan artıq Mərkəzi Asiya ölkələri ilə çox fəal qarşılıqlı əlaqədədir. Ötən ilin noyabrında Azərbaycan rəsmi olaraq Mərkəzi Asiya beşliyinə daxil edildi, Mərkəzi Asiya beşliyi altılığa çevrildi. Bu, misli görünməmiş bir hadisədir, çünki biz Cənubi Qafqaz ölkəsiyik, amma Mərkəzi Asiya Məşvərət Şurasının üzvüyük”.

Azərbaycan Prezidenti bəyan edib ki, ölkəmiz bir çox ölkələrin marşrutu boyunca keçən, hamısı ilə yaxşı münasibətlər quraraq Bakıdan Aralıq dənizinə neft kəməri, Bakıdan İtaliyaya qaz kəməri kimi transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran bir ölkədir. Beləliklə, bu, Avrasiyanın çox geniş coğrafiyasında əməkdaşlıq üçün daha bir çox güclü siyasi zəmanət olacaq. Və tək Mərkəzi Asiya ölkələri ilə deyil, Cənubi Qafqaz və Rusiya ilə müharibə aparan Ukrayna ilə də bağlıdır. Ermənistanla sülh prosesi çərçivəsində bu ölkə ilə iqtisadi-ticarət münasibətləri qurulur, müxtəlif layihələr istiqamətində işlər aparılır.

Göründüyü kimi, Prezident bölgədə sülh və əmin-amanlıq, onun çiçəkləməsini prioritet kimi görür. Və təqdirəlayiq hal ondan ibarətdir ki, bunu avropalılar da etiraf edirlər. Məsələn, Ermənistan və Azərbaycanla qlobal bir marşrut yaranması istiqamətində əməkdaşlıq əlaqələri qurulduğunu diqqətə çatdıran Avropa Komissiyasının Genişlənmə üzrə komissarı Marta Kos deyib:

”Ermənistan ilə Azərbaycan arasında sülh prosesi yeni qapılar açır və əvvəlcə icrası inanılmaz olan bunlara indi artıq bizdə inam yaranır. Prezident Əliyevə təşəkkürümüzü bildiririk ki, o, Avropa İttifaqının da bununla bağlı planlarına həmişə öz dəstəyini verib”.

Beləliklə, Azərbaycan Prezidenti hər dəfə qatıldığı beynəlxalq tədbirlərdə yeni mesajları, təşəbbüsləri ilə çıxış edir və bu dəfə də belə olub. Artıq əksəriyyət də qəbul edir ki, dünyada ərazi bütövlüyü və suverenliyini bərpa edən, separatizmə son qoyan ilk ölkə kimi tarixə düşən Azərbaycan indi regional güc mərkəzi kimi çıxış edir.

***Göründüyü kimi, Prezident İlham Əliyevin 62-ci Münxen Təhlükəsizlik Konfransında iştirakı Azərbaycanın xarici siyasətində mühüm bir mərhələ kimi yadda qalıb. Bu səfər həm regional sülh, həm də qlobal logistika layihələri baxımından strateji mesajlarla zəngin olub. Uzun müddətdir ki, Cənubi Qafqazda sülh hökm sürür. İlham Əliyev Münxendə sülhü yaradan lider kimi iştirak edirdi. Ən əsası isə bu konfrans Azərbaycanın xarici siyasətində ”postmünaqişə” dövründən ”regional əməkdaşlıq və iqtisadi inkişaf” dövrünə tam keçidini nümayiş etdirən platforma kimi yadda qalıb.***

**A.Nuriyev**

Türküstan.- 2026.-17-23 fevral, №7.- S.9.